# Şəmşad Rzanın anım günündə



Dekabrın 15-də AYB-nin "Natəvan" klubunda mərhum şair Şəmşad Rzanın anadan olmasının 85 illiyi qeyd olundu.

Tədbirin aparıcısı, AYB-nin Cənubi Azərbaycan şöbəsinin müdiri Sayman Aruz onun yaradıcılığını qısaca şərh etdi. Sonra söz filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifliyə verildi.

V.Yusifli Şəmşad Rzanın istedadlı bir şair və nasir kimi səciyyələndirdi. Ş.Rza ədəbiyyata 60-cı illərin əvvəllərində gəlib. İlk şeiri - "Fəhlə əlləri" - "Azərbaycan gəncləri" qəzetində dərc edilib. İlk şeir kitabı "Düşüncələr"dən başlayaraq son şeir kitablarına qədər Ş.Rza Azərbaycan təbiətinin gözəlliklərini, insanın mənəvi aləmini - sevgi duyğularını, Cənub həsrətini şeirlərində əks etdirib.

Tədbirdə yazıçı Vaqif Əlixanlı, şairlərdən Maşallah Məftun, Taleh Mansur və b. çıxış etdi.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 17 dekabr.- S. 23.